# Verilənlər Cədvəli

## Pulun yaranması

**Dollar buradan başlayır.** 1862-ci il fevraldan etibarən Xəzinə Katibi kağız pulların üzərində çıxan dizaynlara, şəkillərə görə məsuliyyət daşıyıb. İndiki Xəzinə katibi Henri M. Paulson, Jr. 13 mart 2008-ci ildə dövriyyəyə buraxılacaq yeni 5 dollarlıq əskinaz dizaynını təsdiq edib.

**İstifadə müddəti.** 5 dollarlıq əskinazın dövriyyədə "orta istifadə müddəti" 16 aydır, sonra köhnəldiyinə və cırıldığına görə yeniləri ilə əvəz olunur.

**5-lərin sayı.** Hal-hazırda Pul Nişanlarının və Qiymətli Kağızların Buraxılması üzrə ABŞ Xəzinə Bürosu tərəfindən buraxılan bütün kağız pulların təxminən 9 faizi 5 dollarlıq əskinazlardır.

**Beş dollarlıq əskinazda kim təsvir olunub?** 5 dollarlıq əskinazın ön tərəfində ABŞ Prezidenti Abraham Linkolnun şəkli və arxa tərəfində onun heykəli əks olunub. Beş dollarlıq əskinazların əvvəlki buraxılışlarında Aleksandr Hamilton (1862), Andryu Cekson (1869) və Ulisses S. Qrantın(1886) şəkillər əks olunurdu.

**Prezident Abraham Linkoln və Məxfi Xidmət.** Linkolnun hakimiyyəti illərində ABŞ valyutasının üçdə biri saxtalaşdırılırdı. Xəzinədarın məsləhəti ilə Prezident bu geniş yayılmış problemi həll etmək üçün komissiya yaratdı. Bu komissiya ABŞ Məxfi Xidməti kimi tanındı. ABŞ valyutasının toxunulmazlığının qorunması üçün məsuliyyət daşıyan bu agentlik hal-hazırda Milli Təhlükəsizlik Departamentinin bir hissəsidir.

**5-ci Rayon?** Riçmond Federal Ehtiyat Bankı 5-ci Federal Ehtiyat Rayonunun qərargahıdır, bura Merilənd, Kolumbiya, Virginiya, Şimali Karolina,və Qərbi Virginiyanın çox hissəsi daxildir. 5-ci Rayonun Şarlottada, Şimali Karolinada, Baltimorda, Merilənddə filialları var.

**Sizin 5 dollarlıq əskinazınız varmı?** 5 dollarlıq əskinaza bəzən "fin" deyirlər. Bu söz Alman/Yəhudi mənşəli olub ingilis dilidəki "five" ilə uzaqdan əlaqəsi var, ancaq müasir dövrdə bu söz 19-cu əsrin sonu 20-ci əsrin əvvəlində işlədildiyindən az işlədilir.

**Xahiş olunur, yalnız dünyasını dəyişmişlərin şəkilləri.** 1866-cı ildən ABŞ qanunvericiliyi ABŞ valyutasının üzərində yaşayan şəxslərin şəkillərinin əks olunmasını qadağan edib.

**Hakimiyyətdə qalma.** Həmin tarixi şəxsiyyətlərin şəkilləri 1929-cu ildən ABŞ əskinazlarının üzərində əks olundu.

# Verilənlər Cədvəli

**Adı nədir?** "Göy" ləqəbi, vətəndaş Müharibəsini maliyyələşdirmək üçün 1861-ci ildə ABŞ tərəfindən buraxılan fonu yaşıl olan faizsiz Sadə veksellərin adı kimi yaranıb.

**Etibarlılıq müddəti.** ABŞ hökuməti tərəfindən 1861-ci ildən bəri buraxılan bütün kağız pullar etibarlı və tam dəyərini qoruyaraq istifadə edilən hesab olunur. ABŞ hökuməti heç vaxt valyutasını devalvasiya etməyib.

**Qadın üzü ilə bəzənmiş.** Marta Vaşinqton, şəkli ABŞ kağız pulunun üzərində çıxan yeganə qadındır. Bu şəkil 1886, 1891, 1896 seriyalı 1 dollarlıq Gümüş Sertifikatlarda əks olunurdu.

**Ən iri həcmli dollar.** Pul Nişanlarının və Qiymətli Kağızların Buraxılması Bürosunun çap etdiyi ən yüksək dəyərli əskinaz 1934 seriyalı 100,000 dollarlıq Qızıl Sertifikat idi. Bu əskinazlar xalq arasında istifadəyə buraxılmırdı, yalnız Federal Ehtiyat Bankları və ABŞ Xəzinəsi arasında əməliyyatlar üçün buraxılırdı.

**"Yalnız Allaha İnanırıq!"** Bu yazı ilk dəfə 1864-cü ildə ABŞ xırda pullarının üzərində əks olundu. Bir əsr sonra Konqres bu yazını rəsmi Milli Şüar elan etdi və bu gün həm xırda pulların həm də kağız pulların üzərində bu yazıdan istifadə qanun tərəfindən tələb olunur. Bu şüardan istifadə illər boyu dəfələrlə məhkəmədə müzakirə edilib, ancaq məhkəmələr ardıcıl olaraq bu qərarı dəstəkləyib, ən son 1977-ci ildə ABŞ Ali Məhkəməsi tərəfindən dəstəklənib.

**Təkrar emal edilən əskinaz kağızları.** Federal Ehtiyat Sistemi tərəfindən dövriyyədən götürülən bəzi əskinazlar təkrar emala verilir.

**İmzaların həkk edilməsi!** ABŞ hökuməti 1861-ci ildə ilk kağız pulunu buraxanda, hər bir Sadə Veksel Xəzinə Reyestrinin nümayəndələri və ya Xəzinədar tərəfindən imzalanırdı. Bu yararsız təcrübəyə əsaslanaraq yeni qanunvericilik Reyestr nümayəndələrinin və Xəzinədarın imzalarının valyutaların üzərində həkk edilməsi və ya çap edilməsinə icazə verdi. Bu iş 1862-ci ildə buraxılan ABŞ əskinazlarının ilk seriyalarına tətbiq edildi.

**"1" yalnız rəqəm deyil.** Bütün denominasiyalardan çox 1 dollarlıq əskinazlar çap edilib – 1 dollarlıq əskinazlar Pul Nişanlarının və Qiymətli Kağızların Buraxılması Bürosunun istehsal etdiyi bütün valyutanın 45 faizini təşkil edir.

**Əla ölçülü "pul kəməri".** Hər il buraxılan təxminən 8 milyard ABŞ əskinazlarını 30 dəfə ekvatora dolamaq olar.

**Mil hündürlükdə milyonlar**. 1 mil hündürlükdə pul tayasına 14½ milyondan çox əskinaz daxildir.

# Verilənlər Cədvəli

**Müxtəlif xalqlar üçün müxtəlif denominasiyalar.** ABŞ-da ən çox istifadə edilən denominasiyalar 1 dollarlıq və 20 dollarlıq əskinazlardır, beynəlxalq şəkildə ən çox istifadə edilən 100 dollarlıq əskinazdır.

**Bir funtda...** Denominasiyasından asılı olmayaraq əskinazın təxmini çəkisi 1 qramdır. 1 funt 454 qramdır, deməli 1 funta 454 əskinaz daxildir.

**Qırmızı, ağımtıl və mavi.** Neytral rəngli ABŞ kağız pulu 25 faiz kətandan və 75 faiz pambıqdan ibarətdir. Müxtəlif uzunluqlu qırmızı və mavi sintetik liflər kağız boyu hamar düzülmüşdür.

**Davamlı material!** ABŞ əskinazını təxminən 4000 dəfə ikiqat qatladıqdan sonra cırıla bilər.